# SƏFƏROV SƏRDAR MƏDƏT OĞLU



12 avqust 1960-cı ildə Kəlbəcər rayonunda doğulmuşdur. 1977-ci ildə orta təhsilini başa vurmuş, 1979-cu ildə hərbi xidmətə çağırılaraq, Ermənistan və Gürcüstan respublikalarında xidmət etmişdir. 1981-ci ildə ordudan tərxis olunmuş, 1982-ci ildə Bakı Avtomobil Zavoduna işə düzəlmişdir. Sonra 3 il Daxili İşlər Şöbəsinin mühafizə bölməsində milis nəfəri kimi fəaliyyət göstərmişdir. 1991-ci ildə Qusar rayon Daxili İşlər Şöbəsində sahə müvəkkili kimi xidmətini davam etdirmişdir. 1991-ci ildə Əsgəran rayonu ərazisində baş vermiş hadisə yerinə göndərilən istintaq qrupunun tərkibində olan S.Səfərov geri qayıdarkən ”Ağa körpüsü”ndə erməni yaraqlılarının təcavüzünə məruz qalmışdır. S.Səfərov yoldaşlarını xilas edərkən qəhrəmancasına həlak olmuşdur. Kəlbəcər rayonunda dəfn edilmişdir. Ailəli idi. Ölümündən 3 ay sonra bir qızı dünyaya gəlmişdir. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Səfərov Sərdar Mədət oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Doğulduğu Kəlbəcər şəhərində adına küçə vardı.